**Şövqi Bəhlul oğlu Quliyev**

**UOT:338.43; JEL: Q10.**

# Azərbaycanda kənd təsərrüfatı məhsulları üzrə müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi

***Xülasə***

*Məqalədə Azərbaycan Reespublikasının kənd təsərrüfatı məhsulları üzrə müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsi üçün elmi ədəbiyyatlarda mövcud yanaşmalardan istifadə edilərək metodologiya müəyyən edilmiş və həmin metodologiya əsasında ölkəmizin 2014-2017-ci illər üzrə kənd təsərrüfatı məhsullarının müqayisəli və rəqabət üstünlüyü qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *müqayisəli üstünlük, Balassa indeksi, xalis ixrac indeksi,ticarət şərti indeksi,* aşkar rəqabət indeksi

## Giriş

Məlum olduğu kimi milli iqtisadiyyatın başlıca sahələrindən biri də kənd təsərrüfatı hesab edilir. Kənd təsərrüfatı cəmiyyətin yaşaması və inkişafı üçün əvəzolunmaz əhəmiyyətə malikdir. Belə ki, kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına artmaqda olan tələbatını, ölkənin ərzaq təhlükəsizliyini və bir sıra emal sənaye sahələrinin xammalla təminatını ödəyir. Kənd təsərrüfatının inkişaf səviyyəsi iqtisadiyyatın xüsusilə də, sənayenin yüngül və yeyinti sahələrinin inkişafı səviyyələri və istiqamətinə bilavasitə təsir edir. Bu baxımdan ölkəmizin kənd təsərrüfatında müqayisəli üstünlükləri qiymətləndirməyə imkan verən metodlardan istifadə edərək mövcud vəziyyəti qiymətləndirmək məqsədəmüvafiq olar.

## Kənd təsərrüfatı məhsulları üzrə müqayisəli üstünlüklərin qiymətləndirilməsi metodologiyası

Beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyi müəyyən edən amillərdən biri də ölkələr arasında qiymətlər arsındakı fərqlərlərlə bağlıdır. Yəni ayı-ayrı ölkələrdə istehsal olunan məhsul istehsalında fərqi qiymətlərin aşkarlanması istehsal olunan məhsulun satılmasını da müəyyən qədər asanlaşdırır. Bu amil kənd təsərrüfatında istehsal olunan məhsul baxımından isə çox önəmlidir. Fərqli qiymətlərin olması müəyyən bir üstünlüyün olmasından xəbər verir ki, bu da özünü məhsul ixracında və ya idxalında aydın görünür. Müqayisəli üstünlüklər xarici ticarətlə bağlı nəzəriyyələrdə kifayət qədər əsaslandırılmışdır. Həmin üstünlüyü xarakterizə edən göstəricilərdən biri də ticarət şərti indeksidir.

Ticarət şərti indeksi ölkənin ümumən beynəlxalq ticarətdə üstünlüyünü xarakterizə edən göstəricilərdən biridir. Həmin indeks belə ifadə olunur[1.s.11]:

$$T_i = \frac{\dot{I}_i}{\dot{I}_g}$$

Burada: $T_i$-ticarət şərti indeksi, $\dot{I}_i$ - ixrac qiymətləri indeksi, $\dot{I}_g$ isə idxal qiymətləri indeksini göstərir. $T_i>1$-dən böyük olması ölkənin ixrac qiymətlərinin idxal qiymətlərindən daha yüksək olmasını və ölkə məhsulunun digər ölkələrlə müqaiyisədə daha çox rəqabətqabiliyyətli olmasını gösiərir. Ticarət şərti indeksini hesablamaq üçün adətən “Paaşa, Laspeyres və Fişer” indekslərindən istifadə olunur. Biz tədqiqat işimizdə Paaşa indeksindən istifadə etmişik. Paaşa indeksi aşağıdakı kimidir:



*©Şövqi Bəhlul oğlu Quliyev AMEA İqtisadiyyat İnstitutu,* ***elmlər doktoru üzrə doktorant***
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

$$I_{cp} = \frac{\sum_{i=1}^{n} P^1 \times Q^1}{\sum_{i=1}^{n} P^1 \times Q_0}$$

Burada: $P^1$- malların cari qiymətlərini, $Q_0$- malların baza ilindəki miqdarını, $Q^1$- malların cari qiymətlərini göstərir.

Xarici ticarətdə ölkələrarası müqayisəli üstünlüyün qiymətləndirilməsində istifadə edilən metodlardan biri də Balassa indeksidir. Əslində bir ölkənin digər ölkələrlə müqayisəli üstünlüyünün hesablanması istiqamətində ilk addım ingilis iqtisadçısı Liesner tərəfindən 1958-ci ildə qeyd edilsədə, onun istifadə edilməsi 1965-ci ildə B.Balassa tərəfindən hesablanmış və nəzəri yanaşma aşkar müqayisəli üstünlüklər kimi göstərilmişdir. Həmin indeksin hesablanması aşağıdakı kimidir [10.s.208]:

$$RCA_{ij} = (x_{ij} / X_j)/(x_{iw} / X_w)$$

Burada; $RCA_{ij}$-j ölkəsinin i məhsulu üçün aşkar müqayisəli üstünlüyü, $x_{ij}$-j ölkəsinin i-məhsulu ixracını və $X_j$-isə j ölkəsinin məcmu ixracını, $x_{iw}$-i məhsulunun dünya üzrə ixracını, $X_w$-isə dünya ixracının həcmini göstərir. Nəticə etibarı ilə Balassa indeksinin 1-dən çox olması müqayisəli və ya rəqabət üstünlüyünün mövcudluğunu, 1-dən aşağı olması isə onun mövcud olmadığını əks etdirir. Müqayisəli üstünlüyün qiymətləndiqilməsində istifadə edilən göstəricisilərdən biri də Xalis İxrac İndeksidir ($NET_{ij}$). Xalis ixrac indeksi aşağıdaki kimi hesablanılır **[2.s.210]:**

$$\mathrm{NET}_{ij} = \frac{(\mathrm{X}_{\mathrm{i}} + M_i)\,|}{(\mathrm{X}_{\mathrm{i}} - M_i)}$$

Burada: $X_{ij}$ – i məhsulunun j ölkəsi tərəfindən ixracı; $M_{ij}$ – i məhsulunun j ölkəsinə idxalıdır.

Bu indeksin mahiyyəti ondan ibarətdir ki, ölkələr hər hansı bir məhsulu idxal etdiklərindən daha çox ixrac edirlərsə, onda, həmin ölkələr bu məhsul üzrə müqyisəli üstünlüyə malikdirlər. Əgər hesablama zamanı alınan qiymət sıfırdırsa onda ixrac və idxal bərabərdir. İndeksin kəmiyyətinin mənfi ədəd olması müqayisəli üstünlüyün olmamasına, müsbət ədəd olması isə belə üstünlüyün mövcudluğuna dəlalət edir. ABŞ iqtisadçısı *L.Vollrath isə 1991-ci ildə aşkar müqayisəli üstünlük indeksinin yalnız ixracı əhatə etdiyindən bu indeks ticarəti tam əhatə etmədiyini və bunun üçün aşkar ticarət üstünlüyü indeksinin müəyyən olunmasının zəruriliyini bildirmiş (Relative Trade advantage-RTA) bu indeksin hesablanması üçün isə bura əlavə üç indeksin itətbiq olunmasını təklif etmişdir. Həmin indekslər kimi müqyisəli ixrac üstünlüyü(relative export advantage-RXA), müqayisəli idxal üstünlüyü (relative import advantage-RMA) və aşkar rəqabət* (revealed competitiveness-RC) *indeksləridir. İlk növbədə bildirək ki, nisbi ixrac indeksi ilə ballasa indeksi demək olar ki, eyni mahiyyəti əks etdirir. Qeyd edilən indekslər aşağıdakılardan ibarətdir* [2.s.208-209]:

$$RXA_{ij} = (X_{ij} / X_{nj})/(X_{ir} / X_{nr})$$



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

$$RMA_{ij} = \left(\frac{M_{ij}}{M_{nj}}\right) / \left(\frac{M_{ir}}{M_{nr}}\right)$$

$$RTA_{ij} = RXA_{ij} - RMA_{ij}$$

$$RC_{ij} = Ln(RXA_{ij}) - Ln(RMA_{ij})$$

Burada; $RXA_{ij}$ J-ölkəsinin i-məhsulu üzrə ixracda müqayisəli üstünlüyünü, $RMA_{ij}$ J-ölkəsinin i-məhsulu üzrə idxalda müqayisəli üstünlüyünü, $RTA_{ij}$ J-ölkəsinin i-məhsulu üzrə müqayisəli üstünlüyünü, $RC_{ij}$ –isə J-ölkəsinin i-məhsulu üzrə müqayisəli rəqabət üstünlüyü indeksidir. Həmçinin, X-ixracı, M-idxalı, n-digər bütün məhsulları, r-isə dünya üzrə digər bütün məhsulları əhatə edir. Vollratha görə göstərilən indekslərin müsbət qiymətləri müqayisəli üstünlüyün, mənfi qiymətləri isə üstünlüyün olmadığını göstərir. Eyni zamanda RC-indeksi ölkənin tələb və təklif amilini də nəzərə aldığından bu istiqamətdə müqyisəli və ya rəqabət üstünlüyünü daha yaxşı göstərir.

**Kənd təsərrüfatı məhsulları üzrə müqayisəli üstünlüklərin qiymətləndirilməsi**

2014-2017-ci illərdə ölkəmizə idxal olunan 30 kənd təsərrüfatı məhsulunu **(**İribuynuzlu heyvan əti, quş əti və onun əlavə məhsulları,təzə və dondurulmuş balıq, süd və qaymaq, kərə yağı və digər süd yağları və pastaları, quş yumurtaları, kartof, təzə tərəvəz, təzə meyvə, çay, buğda, qarğıdalı, düyü, bitki yağları, marqarin, ət kolbasası, balıq konservləri və digər analoji məhsullar, xam şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları, şokolad və şokolad məhsulları, makaron məmulatları, meyvə və tərəvəz konservləri, meyvə və tərəvəz şirələri, pivə, tütün, təbii üzüm şərabları,araq siqaret etil spirti**)** həmin illərdə ölkəmiz tərəfindən ixrac edilən 18 kənd təsərrüfatı məhsulu ilə (kartof, təzə tərəvəz, təzə meyvə, çay, buğda unu, bitki yağları, hidrogenləşdirilmiş piylər və yağlar, marqarin, qida üçün yararlı digər qarışıqlar, pambıq lifi, şəkər, meyvə və tərəvəz şirələri, meyvə və tərəvəz konservləri, təbii üzüm şərabları və üzüm suslosu, tünd, pambıq ipliyi, spirtli içkilər, tütün, iribuynuzlu heyvanın diriləri, emal olunmamış qoyun və quzu dəriləri**)** ticarət şərti indeksi üzrə müqayisəsi aparılmışdır. Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsulları üzrə ticarət şərti indeksi ilə əlaqədar apardığımız tədqiqatlar göstərir ki,ölkənin ticarər şərti indeksi tədqiq olunan illərdə (2014-ci il istisna olmaqla) müsbət olmuşdur. 77

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsulları üzrə ticarət şərti indeksinin dinamikası** (paaşe indeksinə görə)

| İllər | İxrac qiymətləri indeksi | İdxal qiymətləri indeksi | Xarici ticarət şərti |
|---|---|---|---|
| 2013 | 1 | 1 | 1 |
| 2014 | 0.98 | 1.0088 | 0.9751 |
| 2015 | 1.16 | 0.9721 | 1.1934 |
| 2016 | 1.37 | 1.3235 | 1.0387 |
| 2017 | 1.80 | 1.0325 | 1.7424 |

Cədəvəl:www.stat.gov.az-ın məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.

Belə hal ölkəmiz üçün müsbət haldır. qiymətləndirilir. Buna görə də bu məqamların dərindən aydınlaşdırılmasına böyük ehtiyac var. Təhlil göstərir ki, 2014-ci il istisna olmaqla qalan bütün təhlil dövründə ixrac qiymətləri indeksi idxal qiymətləri indeksindən böyük olmuşdur. Belə hal onu göstərir ki, Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsulları dünya bazarında yüksək şəkildə xarakterizə olunmaqla yanaşı baha qiymətə satılmışdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Fikrimizcə belə məqam onu deməyə əsas verir ki, ola bilər ki, Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsulları həqiqətən yüksək keyfiyyətli olmuş və buna görədə dünya bazarında baha qiymətə satılmışdır. Eyni zamanda idxal olunan kənd təsərrüfatı məhsullarının qiymət indeksinin nisbətən uçuz olması onunla bağlı ola bilər ki, ölkənin gömrük sərhədləri həddən artıq şəffaf qorunmur və bir sıra mallar gömrük vergisindən yayınırlar. Bu isə öz növbəsində idxal olunan malların ucuz başa gəlməsinə səbəb olur.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasının kənd təsdərrüfatı məhsullarının müqayisəli üstünlüyünün B.Balassa indeksi vasitəsilə qiymətləndirilməsi**

| Mal qrupları | 2014 | 2015 | 2016 | 2017 | Variasiya əmsalı (%) |
|---|---|---|---|---|---|
| Müqayisəli üstünlük: | *>1* | *>1* | *>1* | *>1* | |
| Diri heyvanlar | 0.118 | 0.018 | 0.031 | 0.094 | 2.655 |
| Ət və əlavə ət qida məhsulları | 0.0011 | 0.000 | 0.0006 | 0.0176 | 1.101 |
| Balıqlar və xərçəngkimilər digər su onurğasızları | 0.0000 | 0.000 | 0.0017 | 0.0042 | 0.201 |
| Süd məhsulları quş yumurtası təbii bal və heyvan mənşəli digər ərzaq məhsulları | 0.0195 | 0.027 | 0.0453 | 0.1208 | 3.042 |
| Heyvan mənşəli sair məhsullar | 0.0701 | 0.065 | 0.0857 | 0.0815 | 0.096 |
| Canlı ağaclar və sair bitkilər kəsilmiş çiçəklər | 0.0026 | 0.011 | 0.0336 | 0.0236 | 0.797 |
| Tərəvəzlər meyvəköklülər və kök yumruları | *1.2798* | *1.787* | *2.1716* | *3.6450* | 34.939 |
| Yeməli meyvələr və qoz-fındıq sitrus bitkiləri | *1.5682* | *2.737* | *2.6007* | *3.1153* | 13.104 |
| Qəhvə çay mate və ədviyyatlar | 0.5424 | 0.520 | 0.1502 | 0.2540 | 7.768 |
| Dənli bitkilər | 0.0001 | 0.001 | 0.0320 | 0.0001 | 2.275 |
| Unüyütmə və yarma sənayesi məhsulları maya nişasta | 0.3762 | 0.014 | 0.0041 | 0.0042 | 25.589 |
| Yağlı toxum və meyvələr digər toxum dərman bitkiləri | 0.0462 | 0.020 | 0.0379 | 0.0451 | 0.294 |
| Bitki qarışıqları və ekstraklar | 0.3047 | 0.474 | 0.2377 | 0.2032 | 3.558 |
| Bitki mənşəli sair məhsullar | 0.0887 | 0.113 | 0.0617 | 0.1873 | 1.942 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 1.7734 | 2.356 | 0.2364 | 0.2231 | 77.076 |
| Ətdən və balıqdan alınan hazır məhsullar | 0.1373 | 0.117 | 0.0097 | 0.0103 | 5.078 |
| Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları | *4.0731* | *6.720* | *1.6219* | *1.0548* | 149.460 |
| Kakao və ondan hazırlanan məhsullar | 0.2065 | 0.208 | 0.1242 | 0.1586 | 0.703 |
| Taxıldan undan və ya süddən alınan hazır məhsullar unlu qənnadı məmulatları | 0.0323 | 0.030 | 0.0195 | 0.0335 | 0.106 |
| Tərəvəz meyvə qoz- fındıq və bitkilərin digər hissələrinin emal məhsulları | 0.2405 | 0.240 | 0.2279 | 0.3153 | 0.470 |
| Sair müxtəlif ərzaq məhsulları | 0.0498 | 0.072 | 0.0357 | 0.0611 | 0.338 |
| Spirtli və spirtsiz içkilər sirkə | 0.2438 | 0.319 | 0.2079 | 0.2420 | 0.651 |
| Yeyinti sənayesinin qalıqları və tullantıları | 0.0705 | 0.071 | 0.1368 | 0.1160 | 0.837 |
| Tütün və tütünün sənaye əvəzediciləri | 0.2427 | 0.301 | 0.2576 | 0.4249 | 1.673 |

Cədvəl www.stat.gov.az, http://wits.worldbank.org, və www.trademap.org məlumatları əsasında müəllif tərəfindən hesablanıb.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Cədvəl 2-nin məlumatları göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalı üzrə əlverişli təbii-iqtisadi şəraiti olan ölkə kimi Azərbaycan qoz-fındıq, şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları, toxumlar, sitrus bitkiləri, çay, tərəvəz, bitkilərinin yetişdirilməsi sahəsində müqayisəli üstünlüyünə malikdir. Bunlardan başqa tütün və tütünün məhsulları, spirtli və spirtsiz içkilər sirkə üzrə də potensial olaraq üstünlüklər mövcud ola bilər. Bunu təhlil olunan dövrdə qeyd edilən məhsulların stabil dinamikaya və digər kənd təsərrüfatı məhsulları ilə müqyisədə vahidə daha yaxın olması ilə izah etmək olar. Başqa bir məsələ isə tədqiqat zamanı təhlil olunan digər göstəricilərin stabil dinamikaya malik olmaması da görülür ki, bu da həmin məhsullar üzrə ölkənin kənd təsərrüfatı məhsullarının xarici bazarlardan sıxışdırılıb çıxarıldığı ilə ya da ölkədə kənd təsərrfatı istehsalçılarının bazar konyukturasının öyrənilməsi ilə əlaqələndirmək olar.

Digər bir məsələ isə variasiya əmsalının əksər məhsullar üzrə qiymətinin aşağı olmasıdır. Belə ki, variasiya əmsalının 10% -ə qədər olması müsbət amil kimi, 10-25% arasında dəyişməsini orta dərəcəli, 25% -dən çox olması burada dəyişkənliyin yüksək olduğundan xəbər verir. Bununla belə bildirək ki, variasiya əmsalı nisbi bir dəyərdir, onun həddi tədqiq olunan göstəricinin mütləq dəyərinə təsir göstərmir. Onu da qeyd etmək istərdik ki, fikrimizcə, Azərbaycan Respublikasının kənd təsərrüfatında müqyisəli üstünlüyü cədvəldə göstərilənlərdən sayca daha çoxdur. Belə ki, xarici ticarətdə müqayisəli üstünlüyümüz tərfdaş olduğumuz ölkələrin idxal-ixrac göstəricilərinin məlumatları əsasında deyil, daha çox ölkənin daha dəqiq desək, dünya üzrə ixrac və idxal göstəricilərinə əsaslanır.

**Cədvəl 3.**

**Kənd təsərrüfatı məhsullarının müqayisəli üstünlüklərinin Xalis İxrac İndeksi vasitəsilə qiymətləndirilməsi**

| | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| **Diri heyvanlar və heyvan mənşəli məhsullar** | -1.99701 | -1.54773 | -1.88107 | -2.8184 |
| **heyvan mənşəli məhsullar, Ət və əlavə ət qida məhsulları** | -1.08829 | -1.10752 | -1.06232 | -1.24342 |
| **Balıqlar və xərçəngkimilər digər su onurğasızları** | -1 | -1 | -1.02344 | -1.05214 |
| **Süd məhsulları quş yumurtası təbii bal və heyvan mənşəli digər ərzaq məhsulları** | -1.83413 | -1.75515 | -2.08091 | -3.66243 |
| **Heyvan mənşəli sair məhsullar( yumurta)** | -1.06532 | -1.04062 | -1.02607 | -1.01974 |
| **Bitki mənşəlı məhsullar(Kartof)** | 1.065587 | 1.05261 | 1.032674 | 1.040857 |
| **Canlı ağaclar və sair bitkilər kəsilmiş çiçəklər** | -1.01737 | -1.02864 | -1.03391 | -1.02378 |
| **Tərəvəzlər meyvəköklülər və kök yumruları** | 1.049529 | 1.143792 | 1.329888 | 1.156445 |
| **Yeməli meyvələr və qoz-fındıq sitrus bitkiləri** | 1.109796 | 1.356243 | 1.705638 | 1.595104 |
| **Qəhvə çay və ədviyyatlar** | 4.095327 | 11.24604 | -1.32168 | -1.47106 |
| **Dənli bitkilər** | -1.00014 | -1.00041 | -1.01791 | -1.0001 |
| **Unüyütmə və yarma** | -1.01051 | -1.01288 | -1.00714 | -1.00625 |
| **Müxtəlif toxumlar** | 2.969652 | -1.4072 | -1.19921 | -1.21473 |
| **Buğda unu** | 2.667882 | 4.213763 | 14.31091 | 27.0661 |
| **Bitki yağları, Marqarin, qida üçün yararlı digər qarışıqlar** | -1.00218 | -1.00198 | -1.0007 | -1.00199 |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | |
|---|---|---|---|---|
| **Heyvan və ya bitki mənşəli piylər və yağlar** | 1.04122 | 1.025469 | 2.300549 | 2.996265 |
| **Ətdən və balıqdan alınan hazır məhsullar** | -16.4258 | -3.92611 | -1.06727 | -1.05141 |
| **Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları** | -11.6656 | 10.32725 | -1.84026 | -1.45894 |
| **Taxıldan undan hazırlanan məmulatlar** | -6.1031 | -1.82041 | -1.39535 | -1.69011 |
| **Meyvə və tərəvəz konservləri** | -4.4 | -3.2 | -2.7 | -3.3 |
| **Spirtli və spirtsiz içkilər sirkə** | 2.765285 | 5.018828 | 3.675695 | 5.564785 |
| **Tütün,siqaret** | -1.10253 | -1.09388 | -1.24693 | -1.29982 |

Cədvəl www.stat.gov.az, məlumatları əsasında müəllif tərəfindən hesablanıb.

Cədvəl 3-ün məlumatları göstərir ki, Balassa indeksi ilə müqayisədə xalis ixrac indeksi üzrə daha çox məhsul üzrə müqyisəli üstünlüyə kənd təsərrüfatı məhsullarımız malikdir ki, bura sipirtsiz içkiləri, buğda ununu, çay və müxtəlif ədviyyatları da əlavə etmək olar.

**Cədvəl 4.**

**2014-2017-ci illər üzrə ədədi orta göstəricisi əsasında Azərbaycanın kənd təsərrüfatı məhsullarının müqayisəli üstünlüyünün *müqyisəli ixrac üstünlüyü(RXA), ticarət üstünlüyü indeksi(RTA), müqayisəli idxal üstünlüyü (RMA) və aşkar rəqabət(RC) üstünlüyünün* qiymətləndirilməsi**

| Mal qrupları | Balassa indeksi üzrə ədədi orta | İdxal üzrə ədədi orta (RMA) | RTA | RC |
|---|---|---|---|---|
| **Diri heyvanlar** | 0.0654 | 0.466 | -0.401 | -1.964 |
| **Ət və əlavə ət qida məhsulları** | 0.0049 | 0.099 | -0.094 | -3.007 |
| **Balıqlar və xərçəngkimilər digər su onurğasızları** | 0.0015 | 0.069 | -0.067 | -3.808 |
| **Süd məhsulları quş yumurtası təbii bal və heyvan mənşəli digər ərzaq məhsulları** | 0.0531 | 0.071 | -0.018 | -0.289 |
| **Heyvan mənşəli sair məhsullar** | 0.0755 | 3.112 | -3.036 | -3.719 |
| **Canlı ağaclar və sair bitkilər kəsilmiş çiçəklər** | 0.0176 | 0.813 | -0.795 | -3.831 |
| **Tərəvəzlər meyvəköklülər və kök yumruları** | 2.2209 | 0.105 | 2.116 | 3.056 |
| **Yeməli meyvələr və qoz-fındıq sitrus bitkiləri** | 2.5053 | 0.256 | 2.249 | 2.279 |
| **Qəhvə çay mate və ədviyyatlar** | 0.3667 | 0.474 | -0.107 | -0.257 |
| **Dənli bitkilər** | 0.0083 | 1.610 | -1.601 | -5.272 |
| **Unüyütmə və yarma sənayesi məhsulları maya nişasta** | 0.0997 | 0.851 | -0.751 | -2.145 |
| **Yağlı toxum və meyvələr digər toxum dərman bitkiləri** | 0.0373 | 0.102 | -0.064 | -1.002 |
| **Bitki qarışıqları və ekstraklar** | 0.3049 | 1.114 | -0.809 | -1.296 |
| **Bitki mənşəli sair məhsullar** | 0.1126 | 7.691 | -7.578 | -4.224 |
| **Heyvan və ya bitki mənşəli piylər və yağlar** | 1.1472 | 0.192 | 0.955 | 1.789 |
| **Ətdən və balıqdan alınan hazır məhsullar** | 0.0686 | 0.430 | -0.361 | -1.835 |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

| | | | | |
|---|---|---|---|---|
| **Şəkər və şəkərdən hazırlanan qənnadı məmulatları** | 3.3674 | 3.181 | 0.187 | 0.057 |
| **Kakao və ondan hazırlanan məhsullar** | 0.1742 | 0.000 | 0.174 | 6.547 |
| **Taxıldan undan və ya süddən alınan hazır məhsullar unlu qənnadı məmulatları** | 0.0289 | 0.057 | -0.028 | -0.687 |
| **Tərəvəz meyvə qoz- fındıq və bitkilərin digər hissələrinin emal məhsulları** | 0.2559 | 0.240 | 0.016 | 0.063 |
| **Sair müxtəlif ərzaq məhsulları** | 0.0548 | 0.040 | 0.015 | 0.315 |
| **Spirtli və spirtsiz içkilər sirkə** | 0.2532 | 0.085 | 0.168 | 1.088 |
| **Yeyinti sənayesinin qalıqları və tullantıları** | 0.0986 | 0.000 | 0.098 | 5.977 |
| **Tütün və tütünün sənaye əvəzediciləri** | 0.3065 | 3.462 | -3.155 | -2.424 |

Cədvəl www.stat.gov.az, http://wits.worldbank.org, və www.trademap.org məlumatları əsasında müəllif tərəfindən hesablanıb.

Cədvəl 4-in məlumatları göstərir ki, ölkəmizdə istehsal olunan bir sıra kənd təsərrüfatı məhsulları *aşkar rəqabət (RC) üstünlüyü üzrə* şəkərdən hazırlanan qənnadı məmulatları, yeyinti sənayesinin qalıqları, spirtli və spirtsiz içkilər sirkə, müxtəlif ərzaq məhsulları, tərəvəz meyvə qoz-fındıq və bitkilərin digər hissələrinin emal məhsulları, yeməli meyvələr və qoz-fındıq sitrus bitkiləri, tərəvəzlər meyvəköklülər və kök yumruları üzrə qlobal bazrlarda rəqabət üstünlüyünə malikdir. Beləliklə də araşdırmalar göstərir ki, istənilən sahədə rəqabət üstünlüyünün ən əsas şərtlərindən biri məhz investisiyalarla bağlıdır. İnvestisiyalar ölkədə inkişafın, yeniliyin olmasının əsas şərtlərindən biridir. Məhz investisiyalar ölkədə istehsal olunan məhsulun qiymətinin də formalaşmasında önəmli paya malikdirlər. Digər tərəfdən ölkələrdə işçilərə çaiklən xərclər, xammalın əldə olunması ilə bağlı qiymətlər, məhsul enerjisinin qiyməti, makroiqtisadi sabitlik, iqtisadi mühüt, ölkənin tədiyə balansının vəziyyəti, texnoloji üstünlüklər, xarici borclar və s. da ölkənin digər ölkələrlə müqayisədə iqtisadi üstünlüyünün formalaşmasında önəmli paya malikdirlər.

**Nəticə**

Müasir dövrdə ölkələr arasında olan ticarəti reallaşdırmadan öncə onun reallaşdırma imkanlarını öyrənməzdən əvvəl eyni zamanda digər bir ölkədə satılması baxımından müqayisəli üstünlüyə malik olub olmadığıda yoxlanılır. Azərbaycan respublikasının 24 mal qrupu üzrə ixrac etdiyi kənd təsərrüfatı məhsullarından yalnız 4 növ məhsul üzrə üstünlüyünün olduğu müəyyən edilmişdir. Həmin məhsullar kimi tərəvəzlər meyvələr, köklülər və kök yumruları, qoz-fındıq, sitrus bitkiləri və meyvələri, şəkərdən hazırlanan qənnadı məmulatları və bitki mənşəli yağlarda müəyyən dövrdə üstünlüyə malik olmuşdur. ölkəmizin kənd təsərrüfatı məhsullarının satış bazarları kimi əsasən Rusiya və bir sıra MDB ölkələrində satıldığını və tədqiqatın 180-dan çox dünya ölkələrinin statistik məlumatları əsasında hesablandığını nəzərə alsaq hesab edirəm ki, daha çox məhsul hövləri üzrə üstünlüklər aşkar olunacaqdır. Digər tərəfdən ölkənmizin ölkəmizin əksər qonşu (Ermənistan istisna olmaqla) ölkələrlə isti münasibətlərinin olması da ticarət iqtisadi münasibətlərimizə müsbət təsir edir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Ş.B.Quliyev. Azərbaycan respublikasinin tədiyə balansinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi məsələləri“avtoreferat”. Bakı 2005.
2. M.Adıgüzel “Uluslararası reqabet gücü” Nobel Akademik yayıncılık egitim danışmanlık tic. LTD.Şti. 2011.
3. Shovgi B. Guliyev The study of the potential of Azerbaijan Republic to strengthen commercial and economic relations with CIS Countries Baku-2006.
4. Seyidoğlu Halil Uluslararası İktisat İstanbul 2003.
5. Портер М. Конкурентное преимущество: как достичь высокого результата и обеспечить его устойчивость. М. : Альпина Бизнес Букс, 2005.
6. www.stat.gov.az
7. http://wits.worldbank.org
8. www.trademap.org

***Шовги Бахлул оглу Гулиев***

***Определение сравнительных преимуществ продукции сельского хозяйства в Азербайджане***

***Резюме***

*В статье определена методология выявления сравнительных преимуществ Азербайджанской Республики по сельскохозяйственным продуктам, с использованием существующих подходов в научной литературе, а по этой методике оценены сравнительные и конкурентные преимущества сельскохозяйственных продуктов нашей страны за 2014-2017 годы.*



***Ключевые слова**: сравнительное преимущество, индекс Баласса, индекс чистого экспорта, индекс условий торговли, очевидный индекс конкуренции*

***Shovqi Bahlul Kuliyev***

***Determination of comparative effects on agricultural products in Azerbaijan***

***Summary***

*The article defines the methodology for the identification of comparative advantages of the Republic of Azerbaijan on agricultural products, using the existing approaches in scientific literature, and comparative and competitive advantage of agricultural products of our country for 2014-2017 was assessed on this methodology.*

***Keywords:** comparative advantage, Balassa index, net export index, terms of trade index, obvious competition index*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:13.05.2019.***
***Çapa qəbul olunub:163.05.2019.***